### *ALİ MƏCLİSİN İCLASI*

*14 iyul 2026-cı il. Saat 11.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini **Bəxtiyar Məmmədov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Hörmətli qonaqlar və media nümayəndələri, hamınızı salamlayıram!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar altıncı sessiyasının üçüncü iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bugünkü iclasında 38 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 38 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

Hörmətli həmkarlar!

Bildiyiniz kimi, bu gün Azərbaycanın müasir dövlətçilik tarixində yeni inkişaf mərhələsinin başlanğıcını qoyan əlamətdar bir gündür. Belə ki, 14 iyul 1969-cu il Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlməsi ilə ölkəmizin müstəqil və qüdrətli dövlətçilik təməlləri atıldı.

Məhz həmin dövrdə Ulu Öndər tərəfindən formalaşdırılan güclü iqtisadi, hərbi və kadr potensialı, həyata keçirilən məqsədyönlü siyasət 1993-cü ildə dövlətçiliyimiz məhv olmaq təhlükəsi ilə üzləşən zaman ölkənin xilasında mühüm rol oynadı və Azərbaycanın davamlı tərəqqisinin əsasını qoydu.

Bu gün qürurla deyə bilərik ki, ölkəmiz cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası, dövlətimizin bütün sahələrdə əldə etdiyi uğurlar, Azərbaycanın beynəlxalq nüfuzunun daha da möhkəmlənməsi, 1969-cu ilin 14 iyulundan Ümummilli Lider Heydər Əliyevin başlatdığı inkişaf və dövlətçilik strategiyasının uğurlu nəticəsidir.

Elə buna görə də 14 iyul müasir Azərbaycan tarixinin ən əlamətdar günlərindən biri kimi qiymətləndirilir və hər zaman xalqımızın milli yaddaşında xüsusi ehtiramla anılır.

*(Alqışlar.)*

Hörmətli deputatlar!

Bu əlamətdar günlə əlaqədar çıxış etmək istəyən varmı?

Buyurun, Zeynəb xanım!

**Z.Quliyeva,** *Ali Məclisin Sosial siyasət komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli iclas iştirakçıları, hər birinizi salamlayıram.

Azərbaycan xalqının tarixi yaddaşında Ümummilli Lider, Ulu Öndər kimi silinməz iz buraxmış, həmçinin həm XX, həm də XXI əsrin dahisi olaraq da xarakterizə olunan Heydər Əliyevin ilk dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyulu dövlətçilik tariximizin mühüm dönüş nöqtəsi olmuşdur. Ölkəmizi bu tarixədək SSRİ-nin ən geridə qalmış respublikasından inkişaf sürətinə görə ən qabaqcıl respublikaya çevirən bu dönüş nöqtəsi Ümummilli Lider Heydər Əliyev dühasının uzaqgörən siyasəti ilə başlanmışdır. Dərin sosial-iqtisadi və mənəvi-psixoloji sahələri də özündə cəmləşdirməklə geniş inklüziv məzmun daşıyan bu müdrik siyasətin arxasında Böyük Şəxsiyyətin qətiyyətli mövqeyi, zəngin diplomatik bacarığı və cəmiyyətin bütün kateqoriyalarını azərbaycançılıq ideologiyası, həmçinin xalqımızın milli-mənəvi dəyərləri ətrafında birləşdirə bilmək əzmi dayanırdı. Bu yorulmaz vətənpərvərlik əzmi ilə 70-ci illərdə ölkədə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində bugünkü müstəqil Azərbaycanın sosial-iqtisadi və elmi-texniki potensialının formalaşdırılmasının, bugünkü inkişaf mərhələsinin təməli qoyulmuşdur.

Ümummilli Liderin uzaqgörənliklə müəyyənləşdirdiyi birlik, həmrəylik və inkişaf yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində əzəli yurd yerlərimiz işğaldan azad edilmiş, ölkəmizin suverenliyi və ərazi bütövlüyü bərpa olunmuş, regionda sülh və təhlükəsizlik təmin edilmiş, Azərbaycanın beynəlxalq nüfuzu daha da güclənmişdir.

14 iyul bütün bu nailiyyətlərin ideoloji təməlinin qoyulduğu unudulmaz tarixdir. Bu əlamətdar gündə Ümummilli Liderin parlaq xatirəsini ehtiramla yad edir, Onun başlıca ideyalarından olan dövlətçilik və milli maraqlar ətrafında birlik və həmrəyliyimizin əbədi olmasını arzu edirəm.

*(Alqışlar.)*

**Sədrlik edən.** Çox sağ olun, Zeynəb xanım!

Əlavə çıxışı olan varmı?

Buyurun, Aynur xanım!

**A.Babayeva.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli həmkarlar və iclas iştirakçıları, hər birinizi salamlayıram.

Müstəqil Azərbaycanın memarı, Ümummilli Lider Heydər Əliyev hələ 1969-cu ildə Azərbaycanın müstəqil dövlət ola bilməsi üçün güclü milli intellektual bazanın vacibliyini görürdü. Bu məqsədlə həyata keçirdiyi iki mühüm addım gələcək Azərbaycanın inkişafına məqsədyönlü töhfəsini verəcəkdi. Hər il yüzlərlə azərbaycanlı gənc Moskva, Leninqrad, Kiyev kimi şəhərlərin qabaqcıl ali məktəblərinə, xüsusilə Azərbaycanda olmayan strateji ixtisaslar - kosmik tədqiqatlar, kibernetika, neft-kimya və digər ixtisaslar üzrə təhsil almağa göndərildi. Bu kadrlar sonradan müstəqil Azərbaycanın qurulmasında, inkişafında böyük rol oynadılar.

Daha sonra Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması gələcək milli ordu üçün peşəkar hərbi kadrların yetişdirilməsinin təməlini qoydu. 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra **"Təhsil millətin gələcəyidir"** deyən dahi Heydər Əliyev böhran içərisində olan təhsil sistemini xilas etmək və onu beynəlxalq standartlara uyğunlaşdırmaq üçün genişmiqyaslı islahatlara başladı. Maddi-texniki bazanın gücləndirilməsi istiqamətində ciddi addımlar atıldı. Yeni məktəb binaları tikildi, ali məktəblərə muxtariyyət statusu verildi. Müəllimlərin maddi rifahının yaxşılaşdırılması, fəxri adların verilməsi və təhsil işçilərinin cəmiyyətdəki nüfuzunun bərpası istiqamətində ardıcıl fərmanlar imzalandı.

Ümummilli Liderin əsas tezislərindən biri ölkənin gələcəyinin təbii resurslardan deyil, bilikli, intellektual səviyyəli nəsildən asılı olması idi. Müstəqillik illərində Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almalarına dair dövlət proqramlarının təsdiq olunması ilə dünyanın müxtəlif nüfuzlu universitetlərində təhsil alan gənclər məhz həmin strateji baxışın davamçılarıdır. Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasında həyata keçirilən “Böyük Qayıdış” proqramında da təhsil strateji sahə kimi önə çəkilir. Şuşada, Ağdamda, Cəbrayılda, Füzulidə və digər rayonlarda tikilən müasir “ağıllı məktəblər”, eləcə də Xankəndidə yaradılan Qarabağ Universiteti dahi Öndərin əsasını qoyduğu milli təhsil quruculuğunun bu gün çatdığı ən yüksək zirvəsidir. Onilliklər öncə atılan addımlar bu gün Azərbaycanın rəqabətədavamlı, rəqəmsal texnologiyalara yiyələnən və milli dəyərlərə sadiq gəncliyinin yetişdirilməsində fundamental baza rolunu oynamağa davam edir. Modern təhsil sistemimiz onun strateji hədəflərinin birbaşa günümüzə uzanan əks-sədasıdır.

Bu gün qürurla deyə bilərik ki, torpaqlarımızı işğaldan azad edən, Vətən Müharibəsində Zəfər qazanan qəhrəman gənclik Heydər Əliyevin ideyalarından güc alaraq onun məqsədli prinsipləri ilə tərbiyə olunmuşdur. Bu gün Ulu Öndər Heydər Əliyevin çoxsaylı strategiyalarından biri – təhsil və onun bəhrəsi haqqında çıxış etməkdən qürur duyur, dahi Liderin əziz xatirəsini dərin hörmət və ehtiramla anıram.

*(Alqışlar.)*

**Sədrlik edən.** Sağ olun, Aynur xanım!

Başqa çıxışı olan varmı?

Buyurun, Şəhla xanım!

**Ş.Əhmədova,** *Ali Məclisin Humanitar siyasəti komitəsinin sədr müavini.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

1969-cu ilin 14 iyul tarixi xalqımızın öz milli kimliyinə, mənəvi dəyərlərinə qayıdışının başlanğıcı hesab olunur. Ulu Öndər Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsindən sonra respublikanın sosial-iqtisadi, ictimai-siyasi, mədəni tarixində yeni bir dövr başlanıb. Dahi şəxsiyyət hakimiyyətə gəlişi ilə milli düşüncəni oyadıb, illər sonra qurulacaq müstəqil Azərbaycanın potensial bazasını yaradıb. Təsadüfi deyil ki, bu gün bir çox tarixçi və siyasətçilər haqlı olaraq qeyd edirlər ki, Azərbaycan xalqının XX əsrdəki milli qurtuluşu, əslində, 1969-cu il iyulun 14-dən başlanır. Dahi şəxsiyyət o dövrü belə xarakterizə edirdi: “Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı, bütövlükdə, dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi”.

Fəaliyyətinin amalı, qayəsi doğma Azərbaycanın parlaq gələcəyi olan Ulu Öndər Heydər Əliyev müdrik, uzaqgörən fəaliyyətilə inqilabi dəyişiklik yaradaraq ölkəmizin çoxəsrlik dövlətçilik tarixində milli özünüdərkin oyanmasının, soykökə qayıdışın başlanğıc dövrünün bünövrəsini qoyub.

Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə xalqın min illərlə arzusunda olduğu niyyətlər gerçəyə çevrilmiş, Azərbaycan müstəqilliyə qovuşmuşdur. “Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır” – deyən xalqımızın böyük oğlu Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını, əbədi müstəqillik konsepsiyasını yaratmışdır. Ümummilli Liderin hakimiyyətinin birinci dövrü Azərbaycanda ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində möhtəşəm quruculuq dövrü olmuşdur.

Müstəqil Azərbaycan bu gün Heydər Əliyev siyasəti ilə qətiyyətlə irəliləyir, gücünü və qüdrətini durmadan artırır, ən böyük azərbaycanlıya məxsus ideyaların həmişəyaşar olduğunu bir daha təsdiqləyir. Ümummilli Liderimizin ideyaları, amalları bu gün də Azərbaycanın yoluna işıq saçır, xalqımızı xoşbəxt gələcəyə aparır. Dünya dövlətləri sırasında layiqli yerini tutan Azərbaycanın Ulu Öndərimiz tərəfindən müəyyənləşdirilən inkişaf xəttini hazırda ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir. Gündən-günə inkişaf və tərəqqiyə qovuşan Azərbaycanda əldə olunan bütün nailiyyətlərdə Ümummilli Liderimizin fəal yaradıcı gücə malik olan ideyaları yaşayır.

Xalqımız öz xoşbəxtliyini, ölkəmiz isə öz inkişaf və tərəqqisini bu gün Prezident İlham Əliyev tərəfindən uğurla və inamla davam etdirilən Heydər Əliyev siyasətində, quruculuq və inkişaf yolunda tapır. Azərbaycan bu yolla irəliləyərək yüksəlir, inkişafının sürəti ilə dünyanı heyrətə salır. Çünki bu yolu Heydər Əliyev məktəbinin ən layiqli yetirməsi olan qalib xalqın qalib lideri Prezidentimiz cənab İlham Əliyev davam etdirir.

Mən də digər həmkarlarım kimi bu gün Ümummilli Liderimizin əziz xatirəsini dərin hörmət və ehtiramla anıram.

*(Alqışlar.)*

**Sədrlik edən.** Çox sağ olun, Şəhla xanım!

Deputatlardan əlamətdar günlə əlaqədar əlavə çıxışı olan varmı?

Buyurun, Sevinc xanım!

**S.Həsənova.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli həmkarlar və iclas iştirakçıları!

1969-cu ildə Azərbaycan ittifaq respublikaları arasında bir sıra sahələr üzrə geridə qalırdı. Sənayenin inkişaf tempi qənaətbəxş deyildi, kənd təsərrüfatında məhsuldarlıq aşağı idi, idarəetmədə səmərəliliyin artırılmasına ciddi ehtiyac duyulurdu. Respublikanın mövcud potensialından tam istifadə olunmur, xüsusilə milli kadrların hazırlanması və rəhbər vəzifələrə irəli çəkilməsi istiqamətində mühüm boşluqlar mövcud idi. Belə bir dövrdə Heydər Əliyevin rəhbərliyə gəlməsi Azərbaycanın inkişaf strategiyasını köklü şəkildə dəyişdirdi. Qısa müddətdə iqtisadiyyatın bütün sahələrində kompleks islahatlara başlanıldı. Yeni sənaye müəssisələri yaradıldı və digər strateji sahələrdə istehsal imkanları genişləndirildi. Azərbaycanın sənaye məhsullarının həm həcmi, həm də keyfiyyəti artdı və respublika ittifaq miqyasında mühüm istehsal mərkəzlərindən birinə çevrildi.

Meliorasiya və irriqasiya layihələrinin həyata keçirilməsi, yeni su anbarlarının tikilməsi, kənd təsərrüfatı texnikasının yenilənməsi və fermer əməyinin stimullaşdırılması nəticəsində məhsuldarlıq əhəmiyyətli dərəcədə yüksəldi. Üzümçülük, pambıqçılıq, tütünçülük və digər ənənəvi sahələrin inkişafı kənd əhalisinin rifahına müsbət təsir göstərdi.

Ulu Öndər Heydər Əliyevin fəaliyyətində insan kapitalının inkişafı xüsusi yer tuturdu. Elm və mədəniyyət sahələrində də ciddi irəliləyişlər əldə olundu. Azərbaycan alimlərinin elmi fəaliyyəti dəstəkləndi, milli mədəniyyətin, ədəbiyyatın, musiqinin və incəsənətin inkişafına dövlət qayğısı artırıldı. Tarixi və milli-mənəvi dəyərlərin qorunması istiqamətində ardıcıl tədbirlər görüldü. Milli özünüdərk hissinin gücləndirilməsi gələcək müstəqillik ideyasının formalaşmasında mühüm rol oynadı.

Tarix göstərdi ki, 1969-cu ildən başlayan inkişaf yolu təsadüfi deyildi. Bu, uzaqgörən siyasi baxışın, düzgün idarəetmənin və xalqa xidmət prinsiplərinin nəticəsi idi. Sonrakı illərdə Azərbaycanın qarşılaşdığı çətinliklər zamanı da məhz həmin dövrdə formalaşdırılmış idarəçilik məktəbi və milli kadr potensialı ölkənin inkişafında mühüm rol oynadı.

Bu gün Prezident İlham Əliyev tərəfindən Ümummilli Liderin müəyyən etdiyi inkişaf strategiyası müasir dövrün çağırışlarına uyğun şəkildə uğurla davam etdirilir. Azərbaycanın beynəlxalq nüfuzunun artması, iqtisadi qüdrətinin möhkəmlənməsi, müasir infrastrukturun qurulması, sosial rifahın yüksəldilməsi və ərazi bütövlüyünün, suverenliyinin tam təmin olunması bu siyasi kursun uğurlu nəticələridir.

Ümummilli Liderin zəngin dövlətçilik irsi bundan sonra da Azərbaycanın inkişafına yol göstərəcək, ölkəmiz cənab İlham Əliyevin rəhbərliyi ilə yeni uğurlara imza atacaq, xalqımızın rifahı və dövlətimizin qüdrəti daha da artacaqdır.

*(Alqışlar.)*

**Sədrlik edən.** Sağ olun, Sevinc xanım!

Əlavə çıxışı olan varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Bildiyiniz kimi, bugünkü iclasın gündəliyinə 3 məsələ daxil edilmiş və sizlərə təqdim olunmuşdur. Xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.17 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 38 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Qafar müəllim!

**Q.Qənbərov,** *Ali Məclisin Hesablayıcı komissiyasının üzvü.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 38 deputat gündəliyin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Gündəlik qəbul olundu.

Gündəlikdə duran birinci məsələ “Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin üçüncü oxunuşda müzakirəsidir.

Qanun layihəsi Ali Məclisin 19 iyun və 10 iyul 2026-cı il tarixli plenar iclaslarında birinci və ikinci oxunuşlarda müzakirə olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.6-cı maddəsinə əsasən İqtisadi siyasət komitəsi tərəfindən üçüncü oxunuş üçün göndərilmiş qanun layihəsi Ali Məclisin plenar iclasının gündəliyinə salınıb.

Gündəliyin birinci məsələsi ilə bağlı məlumat verməsi üçün söz İqtisadi siyasət komitəsinin sədri Mübariz Bayramova verilir.

Buyurun, Mübariz müəllim!

**M.Bayramov,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar və sessiya iştirakçıları!

İlk növbədə hər birinizi salamlayıram.

Nəzərinizə çatdırıram ki, "Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ikinci oxunuşda qəbul edilərək baxılması üçün İqtisadi siyasət komitəsinə göndərilmişdir. 13 iyul 2026-cı il tarixdə keçirilən aparıcı komitə olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin iclasında qanun layihəsinin komitənin sədri, sədr müavini və üzvlərinin, Hüquq siyasəti və Sosial siyasət komitələrinin sədr və müavinlərinin, Humanitar siyasət komitəsinin sədr müavininin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti aparatlarının nümayəndələrinin və Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavininin iştirakı ilə müzakirəsi aparılmış, layihəyə əlavə düzəliş olunmamışdır.

Qanun layihəsinin üçüncü oxunuşda qəbul edilməsi üçün komitə iclasında protokol qaydasında qərar qəbul edilərək plenar iclasın müzakirəsinə təqdim olunmuşdur.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Mübariz müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 21.1-ci maddəsinə əsasən qanun layihəsinin üçüncü oxunuşu zamanı qanun layihəsi bütövlükdə səsə qoyulmalıdır.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.20 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 38 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Qafar müəllim!

**Q.Qənbərov,** *Ali Məclisin Hesablayıcı komissiyasının üzvü.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 38 deputat "Naxçıvan Muxtar Respublikasının 2025-ci il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun qəbul edildi.

Gündəlikdə duran ikinci məsələ "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin üçüncü oxunuşda müzakirəsidir.

Qanun layihəsi Ali Məclisin 19 iyun və 10 iyul 2026-cı il tarixli plenar iclaslarında birinci və ikinci oxunuşlarda müzakirə olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.6-cı maddəsinə əsasən Hüquq siyasəti komitəsi tərəfindən üçüncü oxunuş üçün göndərilmiş qanun layihəsi Ali Məclisin plenar iclasının gündəliyinə salınıb.

Gündəliyin ikinci məsələsi ilə bağlı məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

"Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 10 iyul 2026-cı il tarixdə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar altıncı sessiyasının ikinci iclasında Daxili Nizamnamənin tələblərinə uyğun olaraq ikinci oxunuşda qəbul edilmişdir və layihə üzərində işin davam etdirilməsi üçün aparıcı komitəyə qaytarılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.5-ci maddəsinin tələbinə əsasən ikinci oxunuşda qəbul edilmiş qanun layihəsi daxili ziddiyyətlərin aradan qaldırılması və redaktə edilməsi üçün aparıcı komitədə baxılmalıdır. Komitənin 13 iyul 2026-cı il tarixdə keçirilən iclasında qanun layihəsi ilə bağlı deputatlarımız tərəfindən hər hansı təklif və ya irad olmamışdır. Bununla da Ali Məclisin Hüquq siyasəti komitəsinin protokol qaydasında qəbul edilmiş qərarına əsasən qanun layihəsi Ali Məclisin iclasının gündəliyinə daxil edilməsi üçün Ali Məclisin sədrinə göndərilmişdir.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 21.1-ci maddəsinə əsasən qanun layihəsinin üçüncü oxunuşu zamanı qanun layihəsi bütövlükdə səsə qoyulmalıdır.

Deputatlardan kim "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 38 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Qafar müəllim!

**Q.Qənbərov,** *Ali Məclisin Hesablayıcı komissiyasının üzvü.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 38 deputat “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun qəbul edildi.

Gündəlikdə duran üçüncü məsələ “Naxçıvan Muxtar Respublikasının fəxri adları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin üçüncü oxunuşda müzakirəsidir.

Qanun layihəsi Ali Məclisin 19 iyun və 10 iyul 2026-cı il tarixli plenar iclaslarında birinci və ikinci oxunuşlarda müzakirə olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.6-cı maddəsinə əsasən Hüquq siyasəti komitəsi tərəfindən üçüncü oxunuş üçün göndərilmiş qanun layihəsi Ali Məclisin plenar iclasının gündəliyinə salınıb.

Gündəliyin üçüncü məsələsi ilə bağlı məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

“Naxçıvan Muxtar Respublikasının fəxri adları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin tələblərinə uyğun olaraq 10 iyul 2026-cı il tarixində keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar altıncı sessiyasının ikinci iclasında ikinci oxunuşda qəbul edilmiş və üzərində işin davam etdirilməsi məqsədilə aparıcı komitəyə qaytarılmışdır.

Qeyd etmək lazımdır ki, ikinci oxunuş zamanı Hüquq siyasəti komitəsinə üzv olan deputatlar tərəfindən qanun layihəsinin mahiyyəti barədə ətraflı məlumat verilmiş, qanun layihəsi müsbət qiymətləndirilmiş, eyni zamanda 13 iyul 2026-cı il tarixdə keçirilən komitə iclasında da deputatlarımız tərəfindən qanun layihəsinin məzmunu və mətni ilə bağlı hər hansı əlavə təklif və ya irad olmamışdır.

Bu məqsədlə komitənin protokol qaydasında qəbul edilmiş qərarı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.6-cı maddəsinə uyğun olaraq Ali Məclisin iclasının gündəliyinə daxil edilməsi məqsədi ilə qanun layihəsi Ali Məclisin sədrinə göndərilmişdir.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən varmı?

Buyurun, Həbibə xanım!

**H.Allahverdiyeva.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli iclas iştirakçıları, ilk növbədə hər birinizi salamlayıram.

Müzakirəyə təqdim olunan "Naxçıvan Muxtar Respublikasının fəxri adları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi muxtar respublikada fəxri adların verilməsi ilə bağlı hüquqi münasibətlərin vahid qaydada tənzimlənməsini, bu sahədə şəffaflığın və hüquqi müəyyənliyin təmin edilməsini nəzərdə tutur. Qanun layihəsində fəxri ad anlayışı, onların növləri, verilmə əsasları, təqdim edilmə qaydası, fəxri adların vəsiqə və döş nişanlarının təqdim edilməsi, aylıq təqaüdün ödənilməsi, eləcə də fəxri addan məhrum edilmə halları öz əksini tapmışdır. Layihə bu sahədə mövcud hüquqi münasibətlərin sistemləşdirilməsi və təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Layihəyə əsasən fəxri adların təhsil, səhiyyə, mədəniyyət, incəsənət, memarlıq, jurnalistika, mühəndislik, hüquq, dövlət qulluğu, kənd təsərrüfatı, bədən tərbiyəsi və idman kimi müxtəlif sahələrdə xüsusi xidmətləri olan şəxslərə verilməsi nəzərdə tutulmuşdur. Bununla yanaşı, hər bir fəxri ad üzrə namizədlər üçün konkret meyarlar və peşə fəaliyyəti müddətləri müəyyən edilmişdir ki, bu da təltif prosesində obyektivliyin təmin edilməsinə xidmət edir.

Qanun layihəsində həmçinin fəxri adın verilməsi proseduru, təqdimat mexanizmi və bu ada layiq görülmüş şəxslərin sosial təminatı ilə bağlı müddəalar əks olunmuşdur. Bununla yanaşı, fəxri ada xələl gətirən hallarda həmin addan məhrum edilmənin hüquqi əsasları da dəqiq şəkildə müəyyən edilmişdir. Bu isə dövlət təltiflərinin nüfuzunun qorunmasına və qanunun aliliyinin təmin edilməsinə xidmət edir.

Hesab edirəm ki, qanun layihəsi müxtəlif sahələrdə yüksək peşəkarlıq nümayiş etdirən şəxslərin əməyinin layiqincə qiymətləndirilməsinə, onların cəmiyyət qarşısındakı xidmətlərinin dövlət səviyyəsində tanınmasına və gələcək nəsillər üçün nümunə formalaşdırılmasına, dövlət təltifləri institutunun hüquqi əsaslarının daha da möhkəmləndirilməsi sahəsinə mühüm töhfə verəcəkdir.

Məhz bütün bunları nəzərə alaraq "Naxçıvan Muxtar Respublikasının fəxri adları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul edilməsini məqsədəuyğun hesab edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Həbibə xanım!

Əlavə çıxışı olan varmı?

Buyurun, Mahir müəllim!

**M.İsmayılov,** *Ali Məclisin Sosial siyasət komitəsinin sədr müavini.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli həmkarlar və iclas iştirakçıları!

Müzakirəyə çıxarılan "Naxçıvan Muxtar Respublikasının fəxri adları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi dövlətimizin insan əməyinə, peşəkarlığa və cəmiyyət qarşısında göstərilən xidmətlərə verdiyi yüksək dəyərin hüquqi ifadəsidir. Hesab edirəm ki, bu layihə yalnız yeni hüquqi mexanizm yaratmır, eyni zamanda cəmiyyətimizdə zəhmətin, vicdanlı əməyin və peşəkarlığın daha da təşviq olunmasına xidmət edir.

Qanun layihəsində fəxri adların hansı sahələr üzrə veriləcəyi, onların təqdim edilməsinin meyarları, hüquqi əsasları və prosedurları aydın şəkildə müəyyənləşdirilmişdir. Xüsusilə diqqətəlayiq məqam ondan ibarətdir ki, fəxri adların verilməsi yalnız yüksək peşə bacarığına deyil, həm də uzunmüddətli səmərəli fəaliyyətə, ictimai nüfuza və cəmiyyətə faydalı xidmətlərə əsaslanır. Bu yanaşma şəffaflığın və obyektivliyin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Təqdirəlayiq haldır ki, qanun layihəsində fəxri adların təqdim olunması ilə yanaşı, həmin şəxslərin sosial təminatı da nəzərə alınmışdır. Layihəyə əsasən, fəxri adlara görə aylıq təqaüdün müəyyən edilməsi və onun dövlət büdcəsi hesabına ödənilməsi nəzərdə tutulur. Bu yanaşma dövlətin öz vətəndaşlarının əməyinə yalnız mənəvi deyil, eyni zamanda sosial baxımdan da yüksək qiymət verdiyini göstərir. Xüsusilə uzun illər təhsil, səhiyyə, mədəniyyət və digər sosial əhəmiyyətli sahələrdə fəaliyyət göstərmiş insanların dövlət qayğısı ilə əhatə olunması sosial ədalət prinsipinin mühüm təzahürüdür.

Digər mühüm məqam isə odur ki, qanun layihəsində fəxri ad institutunun nüfuzunun qorunmasına xüsusi diqqət yetirilmişdir. Fəxri adın yalnız qanunda göstərilən əsaslarla verilməsi və yalnız ciddi hüquqi əsaslar olduqda ondan məhrumetmə mexanizminin müəyyən edilməsi bu dövlət təltifinin nüfuzunu qorumağa xidmət edir. Bu isə cəmiyyətdə ədalətə, qanunun aliliyinə və dövlət təltiflərinə olan etimadı daha da gücləndirəcəkdir.

Ümumilikdə, hesab edirəm ki, təqdim olunan qanun layihəsi müasir hüquqi tələblərə cavab verir, insan əməyinin qiymətləndirilməsi sahəsində hüquqi münasibətləri daha sistemli şəkildə tənzimləyir və cəmiyyətimizdə əməyə hörmət ənənəsinin möhkəmləndirilməsinə mühüm töhfə verəcəkdir.

Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Mahir müəllim!

Başqa çıxışı olan varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 21.1-ci maddəsinə əsasən qanun layihəsinin üçüncü oxunuşu zamanı qanun layihəsi bütövlükdə səsə qoyulmalıdır.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikasının fəxri adları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.31 dəq.) |
|---|---|
| Lehinə | 38 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 38 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Qafar müəllim!

**Q.Qənbərov,** *Ali Məclisin Hesablayıcı komissiyasının üzvü.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 38 deputat “Naxçıvan Muxtar Respublikasının fəxri adları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun qəbul edildi.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin 3-cü hissəsinə əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının gündəliyindəki məsələlərə baxıldıqdan sonra növbədənkənar sessiyanın işi bitir.

Beləliklə, yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar altıncı sessiyasını bağlı elan edirəm.

Sağ olun!

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir.)*